

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 101 (23.743)**

***5 iyun 2021-ci il, şənbə***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


## Naxçıvanın düşünülmüş, sürətli və davamlı inkişaf strategiyası

### *Blokadadan möhtəşəm tərəqqiyə doğru*

***Azərbaycanın zəngin mədəniyyətə, qədim tarixə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı çətin, mürəkkəb və eyni zamanda parlaq inkişaf yolu keçərək ölkəmizin sosial-iqtisadi, siyasi və mədəni həyatında hər zaman əhəmiyyətli rol oynamışdır. Blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafına göstərilən diqqət və qayğının əsası müstəqil Azərbaycanın qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən qoyulmuşdur.***

Ümummilli liderin 1991-1993-cü illərdə Naxçıvana rəhbərlik etdiyi dövrdə blokada şəraitində yaşayan muxtar respublika əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək Azərbaycanın bu tarixi torpağını erməni işğalı təhlükəsindən xilas etmiş və onun muxtariyyət statusunu qoruyub saxlamışdır.

Məhz həmin illərdə ulu öndər Heydər Əliyevin milli dövlətçilik ənənələrinin bərpası istiqamətində atdığı cəsarətli addımlar, Onun Sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi tarixi qərarlar ölkəmizdə gedən proseslərə də öz müsbət təsirini göstərmiş və Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndirilməsində mühüm rol oynamışdır.

***"Bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim… Xalqın bu əhval-ruhiyyəsini, tələblərini nəzərə alaraq bütün məsələləri götür-qoy etdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm"***, – deyən dahi şəxsiyyət Naxçıvan Muxtar Respublikasını erməni təcavüzündən xilas etmiş, blokada şəraitində gələcək inkişafın böyük təməllərini atmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ulu öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrü barədə demişdir: ***"Tale ulu öndəri bu regiona göndərməklə Naxçıvanı işğal olunmaq, əhalisini isə qaçqın ömrü yaşamaq təhlükəsindən hifz etdi. Azərbaycanın bu qədim torpağını xilas edən ulu öndər özünə Naxçıvan boyda abidə ucaltdı. Azərbaycanın siyasi tarixində parlaq iz qoymuş bu böyük şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, sıravi deputat, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxartdı…"***

Ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasını uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasının modernləşmə xətti artıq bu gün keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra cənab İlham Əliyevin muxtar respublikamıza etdiyi ardıcıl səfərlərdə söylədiyi fikirlərin və dərin məzmunlu nitqlərin ortaq və oxşar bir tərəfi ölkə rəhbərliyinin blokadada olan bir inzibati ərazidə möhtəşəm quruculuğa şahid olmaqdan duyduğu məmnunluğu, bu sahədə muxtar respublika rəhbərinin gərgin əməyini və bu inkişafa ölkə başçısı kimi verəcəyi davamlı dəstəyi qeyd etməsidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan haqqında danışarkən demişdir: ***"Naxçıvanın uğurlu inkişafı Azərbaycanın uğurlu inkişafı deməkdir, bizim müstəqilliyimizin möhkəmləndirilməsi deməkdir. Burada gedən işlər məni çox sevindirir. Mən əminəm ki, bu gözəl ənənələr illərlə davam etdiriləcək və Naxçıvan Muxtar Respublikası həm iqtisadi inkişaf sürətinə görə, həm də infrastruktur layihələrinin səviyyəsinə görə nəinki bu regionda, hətta dünya miqyasında qabaqcıl yerlərdə olacaqdır".***

Ötən dövr ərzində ümummilli lider tərəfindən müəyyənləşdirilmiş siyasi yolun Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla davam etdirilməsi nəticəsində Naxçıvan davamlı sosial-iqtisadi yüksəliş və ictimai həyatdakı nailiyyətləri fonunda keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Məqsədyönlü fəaliyyət nəticəsində, ilk növbədə, muxtar respublikamızın hərtərəfli tərəqqisində mühüm amil olan ictimai-siyasi sabitlik qorunub saxlanılmışdır. Bütün iqtisadi fəaliyyət sahələrində sürətli inkişafa rəvac verən səmərəli iqtisadi siyasət muxtar respublikamızda tarazlı və davamlı inkişaf üçün başlıca amil olmuş, şəhər və rayonlarımızda canlanma yaranmış, turizm inkişaf etmiş, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılmış, yeni təsərrüfat subyektlərinin fəaliyyəti sahəsində işsizlik səviyyəsi minimuma endirilmişdir.

Blokadanın yaratdığı çətinliklərə baxmayaraq, muxtar respublikanın daxili imkanlarından və ehtiyat mənbələrindən səmərəli istifadə olunmuş, həyata keçirilən sabitləşmə, dönüş və inkişaf konsepsiyası iqtisadi və sosial müstəvidə yüksələn xətlə davam etdirilmiş, iqtisadiyyatda müsbət meyillər daha da möhkəmləndirilmişdir.

Muxtar respublikada inkişafın təmin olunmasında regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramlarının uğurlu icrası mühüm əhəmiyyət kəsb etmiş, həyata keçirilmiş iqtisadi islahatlar qısa dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermişdir.

Muxtar respublikamızın mərkəzində olduğu kimi, rayonlarımızda, hətta ucqar kəndlərimizdə belə, nəqliyyat-kommunikasiya sistemlərinin bərpası, elektrik enerjisi, rabitə, qaz, su təminatı kimi sosial məsələlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi sosial-iqtisadi və mədəni-intellektual yüksəlişə zəmin yaratmışdır.

Mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına, yeni sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin, xüsusilə gənclərin faydalı əmək məşğulluğunun artırılmasına və ümumilikdə, muxtar respublika iqtisadiyyatının dinamik inkişafına nail olunmuşdur.



Ötən dövr ərzində blokada şəraitinin yaratdığı mənfi nəticələrin aradan qaldırılmasını, istehlak və istehsal prosesləri üzrə yerli tələbatın vaxtında və keyfiyyətli ödənilməsini, məşğulluq məsələlərinin səmərəli həll edilməsini, ümumilikdə isə sənayeləşmənin daha da genişlənməsini təmin etmək məqsədilə yeni sənaye müəssisələrinin yaradılmasına ciddi fikir verilmişdir. Muxtar respublikada sənaye sahəsində əldə olunmuş dinamik inkişaf meyillərinin dayanıqlılığının təmin olunması üçün həyata keçirilən kompleks tədbirlərin mühüm bir istiqaməti bu sahədə səmərəli kreditləşdirmə mexanizminin formalaşdırılmasından ibarət olmuşdur.

Enerji böhranının başlandığı, elektrik enerjisinin uzunmüddətli fasilələrlə verildiyi, təbii qaz nəqlinin dayandırıldığı, yanacağın çatışmadığı illərdə, xüsusilə də qış aylarında əhali təsərrüfatları ciddi çətinliklərlə üzləşmiş və bu səbəbdən də meşə massivlərindəki, yaşıllıq zolaqlarındakı çoxillik ağaclar kütləvi şəkildə kəsilərək yanacaq kimi istifadə olunmuşdur. İstilik enerjisinin alınmasında əsas xammal qismində odundan, kəsilmiş ağaclardan istifadə, son nəticədə, mövcud meşə massivlərinin, yolların və yaşayış məntəqələrinin ətrafındakı yaşıllıq zolaqlarının, demək olar ki, məhvinə gətirib çıxarmışdır. Həmin dövr üçün qaçılmaz olan bu proseslərin mənfi nəticələrinin aradan qaldırılması məqsədilə sonrakı illər ərzində ardıcıl tədbirlər görülmüş, keçirilən yaşıllaşdırma tədbirləri çərçivəsində qısa zaman ərzində min hektarlarla meşə örtüyü bərpa olunmuş, yeni meşə massivləri, yaşıllıq zolaqları və meyvə bağları salınmışdır.

Uzun müddət ərzində enerji resurslarından istifadə imkanlarının məhdudluğu blokadanın yaratdığı ən kəskin problemlərdən biri kimi ümumi inkişafa ciddi mənfi təsir göstərməkdə idi. Ötən illər ərzində bu sahədə intensiv tədbirlər həyata keçirilmiş, infrastruktur müasir standartlar səviyyəsində yenilənmiş, davamlı olaraq yeni enerji resursları yaradılmışdır ki, bu da, son nəticədə, enerji təhlükəsizliyi problemlərini aradan qaldırmışdır.

Muxtar respublikada cəmiyyətin normal fəaliyyətinin və davamlı inkişafının təmin olunmasında dayanıqlı və keyfiyyətli enerji təchizatı mühüm rol oynayır. Son illər bu sahənin inkişafı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmiş, yeni güclər yaradılmış, infrastruktur yenilənmişdir. Yeni yaradılmış güclər daxili istehlakı tam ödəməklə yanaşı, muxtar respublikanı enerji idxalından enerji ixrac edən regiona çevirmişdir.

Həmçinin muxtar respublikada yaşayış məntəqələrinə təbii qazın verilməsinin bərpası, istehlakçıların qazla təchizatının yaxşılaşdırılması, qaz kəmərlərinin və avadanlıqların yenidən qurulması istiqamətində genişmiqyaslı işlər həyata keçirilmiş, təbii qaza olan daxili tələbat tam ödənilmişdir.

Ali Məclisin Sədri tərəfindən həyata keçirilən davamlı islahatlar, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət proqramlarının qəbulu və icra olunması muxtar respublikamızda tikinti-quruculuq işlərinin həcmini xeyli artırmış, sosial-iqtisadi islahatların əhatə dairəsi genişlənmiş, əhalinin rifah halı yaxşılaşmışdır.

Prezident cənab İlham Əliyevin mayın 10-da muxtar respublikaya etdiyi səfər Naxçıvanda inkişaf strategiyasının uğurla və davamlı həyata keçirildiyini, Naxçıvan özünün ərzaq, enerji, müdafiə və informasiya təhlükəsizliyinə nail olduğunu, burada ordu quruculuğuna xüsusi diqqət yetirildiyini bir daha təsdiqlədi. Dövlət başçısının son səfərində dediyi kimi: ***"Burada, Naxçıvan Muxtar Respublikasında bir çox önəmli tədbirlərdə, açılışlarda iştirak etdim. Respublika inkişaf edir, çiçəklənir, bütün məsələlər öz həllini tapır – təhlükəsizlik, sosial-iqtisadi inkişaf, sənaye, kənd təsərrüfatı, infrastruktur. Biz bundan sonra da bu yolla gedəcəyik ki, ölkəmizin hər bir yerində, əlbəttə ki, bizim tarixi diyarımız olan Naxçıvan Muxtar Respublikasında işlər həmişə yüksək səviyyədə görülsün, insanlar daha da yaxşı yaşasınlar və ölkəmiz daha da güclənsin".***

Bu gün muxtar respublikamızda təmin olunmuş hərtərəfli tərəqqi, heç şübhəsiz ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının davamlı icrası istiqamətində Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən reallaşdırılan ardıcıl və yorulmaz fəaliyyətin, məqsədyönlü və qətiyyətli mövqeyin, fədakar işin məntiqi nəticəsidir.

Bütün bunlar Azərbaycanın tərkibində Naxçıvanın bundan sonra da böyük addımlarla irəliləyib inkişaf edəcəyinin real təminatıdır. Bu isə torpağını və məmləkətini sevən hər bir Azərbaycan vətəndaşının böyük arzusu və inamıdır.

*Gərgin əmək, müdrik ideologiyaya sadiqliyin vəhdətindən doğan bu uğurlar, nailiyyətlər xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolunun alternativsizliyini bir daha sübut edir. Dahi öndərin* ***"Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin"*** *sözlərinin sədaqətlə reallaşdırılması bu gün də bütün sahələrdə muxtar respublikamızı yeni-yeni uğurlara doğru aparır.*

**Rəşid TALIBOV**

## "Beşinci beynəlxalq Asiya müasir elmlər konfransı" keçirilib



***Naxçıvan Dövlət Universitetində "Beşinci beynəlxalq Asiya müasir elmlər konfransı" keçirilib.***

Əvvəlcə Azərbaycan və Türkiyə Respublikasının Dövlət himnləri səsləndirilib, sonra Naxçıvan Dövlət Universitetinin tanıtım videoçarxı nümayiş olunub. Naxçıvan Dövlət Universitetinin və İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutunun (İKSAD-ın) təşkilatçılığı ilə keçirilən onlayn konfransı giriş sözü ilə universitetin rektoru, dosent Elbrus İsayev açıb. Ali təhsil ocağının strukturu, fakültələri, tədris olunan ixtisaslar, beynəlxalq əlaqələrin sürətlə genişləndirilməsi haqqında ətraflı məlumat verən rektor müxtəlif ölkələrin ali təhsil ocaqları ilə tələbə və müəllim mübadiləsinin həyata keçirildiyini bildirib. Qeyd edib ki, ali təhsil ocağı əcnəbi tələbələrin sayına görə ölkə universitetləri arasında öncüllüyünü qoruyur. Vurğulanıb ki, ali təhsil ocağında 10 ölkədən 1000-dən artıq əcnəbi tələbə təhsil alır. Türkiyə universitetləri ilə ikili diplom layihəsi mövcuddur.

Konfransda 33 ölkədən elm adamları tədqiqatlarla çıxış edib. İki gün davam edən konfrans 6 sessiya üzrə fəaliyyət göstərib. Konfransda 28 bölmə üzrə 272 məruzə dinlənilib. 500-ə yaxın tədqiqatçının iştirak etdiyi konfransda ali təhsil ocağının 26 əməkdaşı 22 mövzu ilə çıxış edib.

İKSAD-ın rəhbəri, dosent Mustafa Latif Emekin adından İKSAD-ın Azərbaycan təmsilçisi, Azərbaycan Pedaqoji Universitetinin müəllimi Əlvan Cəfərov çıxış edib. Naxçıvan Dövlət Universitetinə plaket təqdim olunub.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Qida təhlükəsizliyi sağlam gələcəyə təminatdır

***Birləşmiş Millətlər Təşkilatının 20 dekabr 2018-ci il tarixli Qərarı ilə 7 iyun Ümumdünya Qida Təhlükəsizliyi Günü təsis edilib. Burada əsas məqsəd qida təhlükəsizliyinin qloballaşan xüsusiyyətlərinə diqqəti yönəltmək, qida məhsullarının təhlükəsizliyi ilə bağlı arzuedilməz hadisələrin insan sağlamlığına, ümumilikdə, bütün dünya iqtisadiyyatına mənfi təsirini azaltmaq üçün milli və regional səyləri birləşdirməkdən ibarətdir.***

Ölkəmizdə qida təhlükəsizliyi məsələsinə milli prioritetlər səviyyəsində ciddi diqqət ayrılmışdır. Belə ki, qida təhlükəsizliyinin təmin edilməsi, qida məhsullarının keyfiyyətinin yüksəldilməsi və ixrac potensialının gücləndirilməsi, əhalinin təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təminatı, qida məhsullarının təhlükəsizliyinə nəzarət sisteminin səmərəliliyinin daha da artırılması əsas vəzifələrdən biri kimi müəyyən edilmişdir.

Naxçıvan Muxtar Respublikasında da bütün sahələrdə olduğu kimi, qida təhlükəsizliyinin təmin edilməsində dayanıqlı inkişaf vacib bir element kimi diqqətdə saxlanılır. Təcrübə göstərir ki, qida təhlükəsizliyini təmin edən etibarlı sistem yaradıldıqda, bu, ümumi iqtisadi artıma, kənd təsərrüfatı və sənayenin inkişafına, ixrac potensialının artırılmasına və turizmin genişlənməsinə mühüm təsir edən faktora çevrilir.

Muxtar respublika ötən dövr ərzində qida təhlükəsizliyi məsələlərinin həllində unikal təcrübə əldə edib. Səbəb-nəticə əlaqələri baxımından bu təcrübənin tarixinə nəzər saldıqda ilk olaraq regionda mövcud olan təbii-iqlim və iqtisadi resursların bu məqsədlə istifadə olunması üçün yaranmış şəraiti görmək olar. Belə ki, Naxçıvanın uzun illərdir, blokada şəraitində olması səbəbindən yaranan çətinliklər muxtar respublikada qida təhlükəsizliyi məsələsinin daxili imkanlar hesabına həlli üçün bütün resursların səfərbər olunmasını zəruri edib. Qeyd edək ki, eyni qaydada yerli istehsalın inkişafı zərurəti paralel olaraq enerji təhlükəsizliyinin həllində də özünü göstərib və bu sahədə Naxçıvanın qazandığı uğurlar nümunə səviyyəsindədir. Naxçıvanın sərt kontinental iqlim şəraiti, əkinəyararlı torpaqların və suvarma suyunun məhdudluğuna baxmayaraq, ötən dövrdə aqrar sahədə mövcud olan bütün bu və digər problemlərin həlli regionda qida təhlükəsizliyinə necə nail olunmasının əsas vektoru kimi diqqəti çəkir. Fermer və torpaq mülkiyyətçilərinin fəaliyyətinin stimullaşdırılması məqsədilə onlara güzəştli kreditlərin təqdim olunması, ən yeni kənd təsərrüfatı texnikalarının lizinq yolu ilə torpaq mülkiyyətçilərinə verilməsi, mütərəqqi suvarma sistemlərinin qurulması, əkinçilik və heyvandarlıqda ənənəvi üsullardan yeni mütərəqqi texnologiyalara keçidin təmini, aqrar sahədə elmi yeniliklərin tətbiqi, baytarlıq fəaliyyətinin dünya standartlarına uyğunlaşdırılması və bu sahədə yerli kadr təminatının formalaşdırılması, süni mayalandırma və toxumçuluq üzrə ixtisaslaşdırılmış müəssisələrin yaradılması, soyuducu anbar və istixana şəbəkəsinin genişləndirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının maraqlarının müdafiəsi üçün daxili bazarın qorunması tədbirləri, son nəticədə, Naxçıvan Muxtar Respublikasında uzunmüddətli dövr üçün qida təhlükəsizliyinin təmin olunmasını reallığa çevirib.

Bu gün muxtar respublikada 127 növdə ərzaq məhsulu istehsal olunur və 108 növdə ərzaq məhsuluna olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Görülən tədbirlər sayəsində qida məhsullarının istehsalı üzrə dinamik inkişaf qorunub saxlanılır. Belə ki, ötən 2020-ci ildə Naxçıvanda 537 milyon 584 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da bir il öncəyə nisbətən 4,6 faiz çoxdur. Qida məhsulları istehsalında sahibkarlıq fəaliyyətinə verilən kreditlərin rolu çox mühümdür. 2020-ci ildə muxtar respublikada kənd təsərrüfatı sahəsi ilə məşğul olan təsərrüfat subyektlərinə, ümumilikdə, 13 milyon 357 min manat kredit verilmişdir ki, bu vəsaitlər hesabına ərzaq məhsulları istehsalında həm növ və çeşid üzrə artım, həm də keyfiyyət dəyişikliyi yaranmışdır.

Naxçıvanda əkinəyararlı torpaq sahələrinin artırılması üçün görülən işləri, xüsusilə qeyd etmək lazımdır. Belə ki, müstəqillik illərində 22 min hektara yaxın yararsız torpaq sahəsi aparılmış meliorasiya və irriqasiya tədbirləri sayəsində kənd təsərrüfatı dövriyyəsinə cəlb edilib. Hazırda 177 min hektardan çox əkinəyararlı torpaq sahəsinin 62 min hektarından çoxu mütərəqqi suvarma sistemləri ilə təmin olunub. Nəticədə, 90-cı illərin əvvəlləri ilə müqayisədə muxtar respublikada kənd təsərrüfatının ümumi məhsulu 13 dəfədən çox, bitkiçilik məhsulları istehsalı 15 dəfəyə yaxın, heyvandarlıq məhsulları istehsalı isə 11 dəfə artıb.

Ötən ilin statistikasına nəzər saldıqda, görmək olar ki, muxtar respublikada 63405 hektar sahədə əkin aparılmış, o cümlədən 36879 hektar sahədə taxıl, 3241 hektar sahədə kartof əkilmişdir. Eləcə də 2020-ci ildə 118 min ton dənli və dənli-paxlalılar, 14753 ton dən üçün qarğıdalı, 367 ton dən üçün günəbaxan, 76703 ton tərəvəz, 31798 ton ərzaq üçün bostan məhsulları, 52518 ton meyvə, 16885 ton üzüm tədarük edilmişdir. Muxtar respublikada əkinçiliyin inkişafında və qida təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyətinin yenidən qurulması başa çatdırılmışdır.





Muxtar respublikada aqrar sahənin inkişafı ilə bağlı görülən işlər, qəbul olunmuş Dövlət proqramları kənd təsərrüfatında məhsul istehsalının həcminin davamlı artmasını şərtləndirməkdədir. 2012-2015 və 2016-2020-ci illəri əhatə edən meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət proqramlarının icrası da bu baxımdan mühüm əhəmiyyətə malik olmuş, muxtar respublikada meyvə və tərəvəz əkini sahələri genişləndirilmiş, əhalinin ilboyu meyvə-tərəvəz məhsullarına olan tələbatının ödənilməsi üçün yeni soyuducu anbarlar və istixana təsərrüfatları yaradılmışdır. Bu sahədə qazanılmış uğurların davamlılığının təmin olunması məqsədilə “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” və “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı”nın qəbulu əsasında konkret icra mexanizmləri müəyyən olunmuşdur.

Muxtar respublikada əhalinin payız-qış mövsümündə keyfiyyətli ərzaq məhsullarına olan tələbatının ödənilməsində yaradılmış soyuducu anbar və istixana kompleksləri də öz əhəmiyyətini göstərir. Bu gün muxtar respublikada dövlət maliyyə dəstəyi ilə yaradılan ümumi tutumu 19 min tondan çox olan 46 soyuducu anbar və həmçinin yaradılmış 34 istixana təsərrüfatı bu sahədə də tələbatı ödəməyə geniş imkan yaradır.





Keyfiyyətli heyvandarlıq məhsulları istehsalı üzrə Naxçıvanda zəngin təcrübə mövcuddur. Ötən dövrdə muxtar respublikada bu sahənin də inkişafına diqqət artırılıb və 1 yanvar 2021-ci il tarixə muxtar respublikanın fermer və kəndli təsərrüfatlarında qaramalın sayı 117 min 689 baş, qoyun və keçilərin sayı 717 min 880 baş olub. Təkcə ötən ildə 68 yeni heyvandarlıq təsərrüfatı yaradılmış, 28 heyvandarlıq təsərrüfatı genişləndirilmiş və bu istiqamətdə işlər davam etdirilmişdir. Nəticədə, 2020-ci ildə muxtar respublikada diri çəkidə 29214 ton ət, 87334 ton süd istehsal olunmuşdur ki, bu da 2019-cu illə müqayisədə 2,8 və 2 faiz çoxdur. Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması və məhsuldarlığın yüksəldilməsi məqsədilə bu il Süni Mayalanma Mərkəzi istifadəyə verilmişdir. Muxtar respublikada əhalinin keyfiyyətli və təhlükəsiz heyvandarlıq məhsulları ilə təminatını qoruyub saxlamaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə “2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi bu istiqamətdə mühüm vəzifələrin icrasını önə çəkmişdir.

Kənd təsərrüfatının müasir texniki avadanlıqlarla təminatı məqsədilə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 336-sı 2020-ci ildə olmaqla, ümumilikdə, 3075 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilmişdir.

Naxçıvan balı hər yerdə öz alıcısını tapan ekoloji təmiz məhsullardandır. Bu sahənin davamlı inkişafı məqsədilə “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı” qəbul olunmuş və konkret istiqamətlər üzrə icrası davam etdirilir. Son illərdə arıçılıqla məşğul olanlara hər arı ailəsinə görə subsidiyaların verilməsi bu sahəyə marağı artırmış, 2020-ci ilin sonuna muxtar respublikada arı ailələrinin sayı 99 min 935-ə çatdırılmışdır.

Əsasən, yüksəkkeyfiyyətli qida məhsullarının istehsal olunduğu ailə təsərrüfatı sektoru muxtar respublikada uğurla inkişaf etdirilməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr və 2019-cu il 18 yanvar tarixli sərəncamları ilə “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı” Tədbirlər planlarının təsdiq olunması ailə təsərrüfatlarının fəaliyyəti üçün daha geniş imkanlar açmışdır. Təkcə 2020-ci ildə 49 ailə təsərrüfatına 604 min manata yaxın dövlət maliyyə dəstəyi göstərilmişdir. Hazırda 1040 ailə təsərrüfatı bu sahəyə göstərilən qayğıdan bəhrələnərək Naxçıvanın təbii resurslarından müxtəlif adlarda hazır qida məhsulları istehsal edirlər. Bir çoxlarının artıq kiçik sahibkar kimi fəaliyyətə başladığı bu təsərrüfatlarda istehsal olunan məhsullar təkcə daxili bazarda deyil, ölkəmizin digər şəhərlərində fəaliyyət göstərən “Naxçıvan məhsulları” mağazalar şəbəkəsində də geniş alıcı rəğbəti qazanıb.

Qida təhlükəsizliyi sahəsində həyata keçirilən bütün bu tədbirlər, nəticə etibarilə, muxtar respublikanın ixrac potensialını artırmış, 2020-ci ildə muxtar respublikadan 103 milyon 158 min ABŞ dolları dəyərində kənd təsərrüfatı, o cümlədən meyvə və tərəvəz məhsulları ixrac olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti istehlakçılara təklif olunan qida məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin olunmasını prioritet fəaliyyət istiqaməti kimi diqqətdə saxlayır. Cari ilin I rübü ərzində keyfiyyət standartlarına əməl edilməsinə nəzarət işi diqqətdə saxlanılmış, ümumilikdə, məhsulların 295 halda, o cümlədən qida məhsullarının 289 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış və nəticələrin texniki normativ-hüquqi aktların, standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

*Muxtar respublikada reallaşdırılan iqtisadi siyasətin mühüm tərkib hissəsi kimi qida təhlükəsizliyinin səmərəli təmin olunması işi bundan sonra da diqqət mərkəzində saxlanılacaq və ardıcıl tədbirlər həyata keçiriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***

## Taxıl biçini üçün 34 kombayn hazır vəziyyətə gətirilib



Qarşıdan strateji məhsul olan taxılın biçin dövrü gəlir. Torpaq mülkiyyətçiləri ötən ilin payızından bəri çəkdikləri zəhmətin bəhrəsini görməyə hazırlaşırlar. Əkilmiş sahələr mütərəqqi suvarma metodları ilə suvarılıb, gübrə verilib, zərərvericilərə qarşı dərmanlama işləri aparılıb. Bu məqamda qeyd etmək yerinə düşər ki, ötən ilin payızında bu ilin məhsulu üçün 10 min 603 hektar sahədə taxıl əkilib. Sahələrdən yüksək məhsuldarlıq gözlənilir. Artıq yaxın günlərdə biçin kampaniyasına start veriləcək. Bunun üçün rayonda 34 kombayn saz vəziyyətə gətirilib.

Babək Rayon İcra Hakimiyyətindən aldığımız məlumatda bildirilir ki, bu işdə “Naxçıvan Aqrolizinq” ASC-nin xətti ilə güzəştli şərtlərlə alınan kombaynlar çoxluq təşkil edir. Bu texnikalar əvvəlkilərdən fərqli olaraq gün ərzində 35-40 hektar əkin sahəsini biçmək iqtidarındadır. Bu da imkan verir ki, taxıl biçini tez və itkisiz şəkildə başa çatdırılsın. Bundan başqa, həmin texnikaların hər birinə yerində baxış keçirilib və onların biçinə hazırlıq vəziyyəti yoxlanılıb. Qeyd edək ki, biçin kampaniyasında mühüm işlərdən biri də taxıl sahələrinin yanğından qorunması ilə bağlıdır. Bunun üçün Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yerli qurumu tərəfindən kəndlərdə torpaq mülkiyyətçiləri, icra nümayəndələri, mexanizatorlar və bələdiyyələrin iştirakı ilə görüşlər keçirilib, biçin dövründə iştirak edəcək şəxslər yanğın təhlükəsizliyinə qarşı maarifləndirilib.

**Faiq ALLAHVERDİYEV**

## *“Təbiəti qoruyaq!”* aksiyası keçirilmişdir

5 iyun bütün dünyada Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü kimi qeyd olunur. Son illər ekoloji tarazlığın qorunması, yaşıllıq zolaqlarının genişlənməsi və bu kimi məsələlər mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikamızda da yaşıllıq sahələrinin həcminin dəfələrlə artması, yurdumuzun yaşıllıqlar məskəninə çevrilməsi görülən ekoloji tədbirlərin nəticəsidir. Bu sahədə həyata keçirilən tədbirlər, mövcud problemlərin həlli istiqamətində görülən işlər davamlı xarakter alıb, meyvə bağları, yaşıllıq zolaqları salınıb.

5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Gününün şagirdlər arasında təbliğ olunması məqsədilə muxtar respublikanın ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdlərinin və Naxçıvan Muxtar Respublikası Ekoloji Tərbiyə Mərkəzinin dərnək üzvlərinin iştirakı ilə “Təbiəti qoruyaq!” aksiyası keçirilmişdir. Aksiya çərçivəsində muxtar respublikada həyata keçirilən ekoloji tədbirlər haqqında şagirdlərə məlumatlar verilmiş, ümumtəhsil məktəblərinin ərazilərində ağac və kol bitkilərinə aqrotexniki qulluq göstərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

Şərq qapısı – 100

# Çinar ömürlü söz təknəsi, maarifçilik salnaməsi...



***1 iyun 2021-ci il tarixdə ilhamlanıb alıram qələmi əlimə, muxtar respublika mətbuatına Ali Məclis Sədrinin növbəti qayğısı – "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə sərəncamın işığında yazmağa çalışıram bu yazını. Birəsrlik ömür kitabını vərəqlədikcə düşünürəm: Yüzlərlə jurnalistin yaradıcılıq yoluna nur çiləyən, gələcəyinə çıraq tutan, ulu tariximizdən, mədəniyyətimizdən, adət-ənənələrimizdən, keşməkeşli dünənimizdən, nailiyyətli bu günümüzdən, blokadalı inkişafdan, tərəqqidən, quruculuqdan, səndən, məndən, bizdən, hər birimizdən söhbət açan çinar ömürlü söz təknəsinin özündən söhbət açmaq necə də məsuliyyətli hiss, necə də ağır missiyadır...***

1921-ci il 9 noyabr tarixdə dünyaya göz açan, minlərlə gözləri dünyaya açdıran doğma qəzetimizin səhifələrində nələr yer almayıb, nələr. Nələrdən danışmayıb, nələrdən yazmayıb ki, bu mətbu orqan. Vərəqlədikcə hər səhifəsindən hiss edirik, duyuruq söz ustadlarının səslərini, səyahət edirik ulu babalarımızın təxəyyül, təfəkkür dünyalarına, diqqətimizə hakim kəsilir dünənimizdə baş verənlər, öyrənirik bu günümüzün reallıqlarını, müstəqilliyimizi, inkişafı, tərəqqini hər incə detalınadək, varırıq faktlarla zəngin dolğun nəticəyə. İşıqlı sabahlara aparan yolda qarşımıza çıxan maneələri aşdığımız, közərən çıraq işığına nigaran nəzərlə baxdığımız, qəlbimizdə işıldayan ümid, inam işığından güc aldığımız, titrəyən nəfəsimizlə əsən əlimizi isitməyə çalışdığımız qaranlıq gecələrdə, gecə rəngli gündüzlərdə çəkdiyimiz əziyyətlərlə qarşılaşırıq rəngi solmuş səhifələrə nəzər saldıqca...

Ayrı-ayrı illərdə işıq üzü görən nömrələrində dönə-dönə tariximizə işıq salır, olanları-keçənləri xatırladır, bircə hadisəni, ələmətdar anı belə, unutmur, unutdurmağa qoymur bu 100 yaşlı maarifçilik salnaməsi. Bəşəriyyətin ikinci yaradılışı olan Nuh tufanı dövrünə səyahət edirik cümlələrin sehri ilə, dinləyirik o uğultunun sonunu, sükutunu, Nuhun Nəqşicahana ayaq basdığı, ona qəlbdən bağlanaraq ömrünü-gününü bu torpağa həsr etməsindən, dərdlərin dərmanı olan, el-el, oba-oba gəzən, ağız dad-tamımız olan duzun mənbəyindən – Duzdağ şaxtasından, ulu diyarın binə olmasından danışır, Dədə Qorqudun oğuz övladlarını birliyə-bərabərliyə səsləməsindən, Koroğlunun nərəsindən, Babəkimin haqq səsindən verir soraq. Şərqin qapısı sayılan Oğuz yurdunun dövlətçilik yoluna nəzər eyləyir, Atabəy Şəmsəddin Eldənizin, Məhəmməd Cahan Pəhləvanın, Qərbi Azərbaycanın böyük bir hissəsini əhatə edən Naxçıvan xanlığını yaradan Kəngərlilər sülaləsindən olan Naxçıvanskilərin torpaqlarımızı birləşdirmək əzmindən, tarixi missiyalarından, xeyirxah əməllərindən danışır, insanlara ərməğan edilən yaşam qaynaqları sayılan çeşmələrin, hamamların, körpülərin sözlə rəsmini çəkir, qədim, ağ-qara fotoların üzə çıxarır, dünənimizə işıqsaçan Əcəmi memarlıq nümunələrindən – Möminə xatının, Yusif Küseyr oğlunun bədii təxəyyülə hopan hər naxışının, Möminə xatın türbəsinin baştağında kufi xətti ilə yazılan "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar" sözlərinin açır məğzini, ortaya çıxarır mahiyyətini. Əmir Teymura təslim olmayan, 14 illik şərəf, ləyaqət dastanı yazan Əlincəqalanın hər addımına ləpir salan ulu babalarımızın əl-ayaq izlərindən, müstəqillik illərində bu qəhrəmanlıq salnaməsinə hörmət hissindən, min bir əziyyət bahasına da olsa, yüksək səviyyədə bərpa edilərək yaşadılmasından, milli kimliyimizin açarları gizlənən onlarla belə tarixi abidələrə yeni həyat verilməsindən danışır...

Əcdadı "Əkinçi" qəzetinin insanları doğruluğa, düzgünlüyə səsləyən hər cümləsinə sədaqətlilik göstərir, maarifçilik mirasına sahib çıxır, Ana dilinin müqəddəsliyini aşılayan, cahilliyi tənqid edən Mirzə Cəlil dühasından ilhamlanır, neçə-neçə şair, yazıçılarımızın Vətən, torpaq təəssübkeşliyi aşılayan misralarını qonaq edir simasına. Öz yaradılışından bir neçə il öncə baş verən, Naxçıvanın tarixi taleyində əvəzsiz rol oynayan Araz-Türk Respublikasının yaradılmasından, muxtariyyət yolunda atılan addımlardan danışdıqca, Nəriman Nərimanovun, Behbud ağa Şahtaxtinskinin mübariz, dönməz mövqelərini, mütərəqqi fəaliyyətlərini rəğbətlə alqışlayır. Xalqımızın qəhrəmanlıq səhifələrinə öz səhifələrində hər zaman böyük yer verir, şahidlik etdiyi İkinci Dünya müharibəsi illərində vətənpərvər oğullarımızın göstərdikləri şücaətlərdən söhbət açır, cəbhədən yazılan məktubları oxucularına təqdim edir, torpaq, el uğrunda vuruşan igidlər üçün gündüzləri tarlalarda çalışıb, gecələri ilmə-ilmə corab, şərf toxuyan anaların zəhmətlərini ürək yanğısı ilə çatdırır geniş ictimaiyyətə...

1969-cu il 14 iyul tarixi. Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə birinci dəfə siyasi hakimiyyətə gəlişi. Xalqımızın taleyində dönüş dövrü kimi xarakterizə olunan həmin ildən sonra "Şərq qapısı" da ulu öndərin xüsusi qayğısını hiss edir üzərində, təmin olunur böyük formatda nəşri, xalqımızın milli dəyərlərinə və mədəniyyətinə həsr olunmuş yazılar ilə görüşünə gəlir oxucularının, geniş şəkildə qeyd olunur 50 illik yubileyi...



*"1921-ci ildən başlanan yol" Rəssamı Həbibə Allahverdiyeva*

1990-cı illərin ağır, məşəqqətli dövrünə şahidlik edir, qəhrəmanlıq salnaməmiz sayılan Sədərək döyüşlərində yurdsevər naxçıvanlıların son damla qanlarınadək vuruşmasından, "Hər şey Vətən üçün!" şüarı ilə canlarından, qanlarından keçməsindən, bir qarnı ac, bir qarnı tox yaşayan yerli əhalinin güllələbaran altında səngərdəki oğullara ərzaq daşımasından, mərmi yağışı altında şagirdlərə elm ziyası aşılayan müəllimlərin fədakarlığından fəxarətlə danışır, milləti nicat yoluna çıxaracaq yeganə dahi siyasətçi Heydər Əliyevin muxtar respublika üçün misilsiz fəaliyyətindən geniş şəkildə bəhs edir, xalqı inamlı sabahlar naminə birliyə-bərabərliyə, ulu öndərin ətrafında sıx birləşməyə səsləyir. Bir-birinə həsrət qalan iki qardaşın, Azərbaycan və Türkiyənin vüsalına heyranlıqla tamaşa edir, sərhəd dirəklərini qışın şaxta, çovğununa rəğmən tar-mar edən insanların həsrət alovlu qəlblərindən süzülüb gələn sözləri diqqətə çatdırır, ümid körpüsü olan Sədərək-Dilucunu binə edənlərin məğrurluğuna heyranlığını ifadə edir. Keşməkeşli dövrlərə şahidlik etdikcə baş verən neqativ halları da üzə çıxarır, problemlərin həlli yollarını axtararaq insanlara kömək əlini uzatmağa çalışır, ictimai qınaq yaradaraq həllinə nail olur müəyyən məsələlərin.

Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvanda Ali Məclisin Sədri seçilməsini təkidlə tələb edən minlərlə naxçıvanlının ürək döyüntüsünə qulaq verir, 1990-1993-cü illərdə dahi siyasətçinin Azərbaycanın xilası naminə həyata keçirdiyi tədbirləri və qəbul etdiyi tarixi qərarları geniş xalq kütləsinə çatdırır, informasiya blokadasının aradan qaldırılmasında və milli dövlət quruculuğu yolunda fəal mübarizə aparır. 26 iyul 1990-cı il tarixli nömrəsində dərc olunan, ulu öndərin Vətənə qayıtdıqdan sonra Azərbaycan mətbuatında ilk müsahibəsi isə qəzetin gələcək fəaliyyətinə böyük stimul olur, inkişafına təkan verən məxəz rolunu oynayır: ***"Mən "Şərq qapısı" qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün "Şərq qapısı"ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb"...***

Blokadaya düşən Naxçıvanda müstəqillik illərində aparılan uğurlu siyasət nəticəsində keşməkeşli, buruqlanlı yollardan inamlı, işıqlı sabahlara, firavan, xoşbəxt gələcəyə aparan müdrik Qurucu Rəhbərin həyata keçirdiyi mütərəqqi missiyanı, uzaqgörən işləri hər incə məqamınadək nümayiş etdirir, insanları yanlışlıqdan qaçmağa, düzgün yola, qurub-yaratmağa çağırır. Ali Məclis Sədrinin 2000-ci il 29 mart tarixli Sərəncamından sonra özünün yeni inkişaf mərhələsinə qədəm qoyan, maddi-texniki bazası daha da möhkəmlənən qəzet şəhər, qəsəbə, kəndlərimizin abadlaşan, gözəlləşən simasına boylanır, iməciliklərdə minlərlə ağac əkən, ümumi evimiz sayılan doğma yurdumuzun səliqə-sahmanına xüsusi həssaslıqla yanaşan, festivallarda, bayramlarda, ələmətdar günlərdə milliliyimizi, adət-ənənəmizi yaşadan, təbliğ edən insanlardan əməyindən, startaplar yaradan gənclərin vətənpərvərlik hissindən, innovativ düşüncəsindən qürurlanır sinəsi mətbu orqanın.

Milli mətbuatımızın 135 illik yubileyində – 2010-cu il iyulun 22-də redaksiyası yeni bina ilə təmin olunan, həftədə 5 gün rəngli formatda işıq üzü görən nömrələrində bütün sahələrdə artan yüksəlişdən, Vətənimizin keşiyini gecə-gündüz ayıq-sayıqlıqla çəkən oğulların şərəfli xidmətindən yazır, qəhrəmanlıqlarından söhbət açır, Günnüt zəfərindən, Aprel döyüşlərindən və ən nəhayət, ötən il 44 günlük Vətən müharibəsində qazanılan Böyük Qələbədən danışır. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi: ***"Naxçıvanlılar İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər... Başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər, naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər"*** sözlərindən fəxarət duyur, şəhid ailələrinin acısına şərik olur, dövlətimizin onlara bəslədiyi sonsuz sevgini, qayğını gözlər önünə sərir, Vətən oğullarının həyat yoluna nəzər salır, qəhrəmanlıqlarını dilə gətirir qəzetimiz. 2012-ci ildə yaradılan, sonralar daha da təkmilləşdirilən, gün ərzində mütəmadi surətdə yenilənən saytında muxtar respublika ilə yanaşı, ölkəmizdə, dünyada baş verən ictimai-siyasi hadisə və proseslərə də geniş yer verir...

Ey doğma, əziz qəzetimiz, "Şərq qapısı!" Birəsrlik yol qət etdin, keşməkeşli anlar yaşadın, yorulmadın, usanmadın, bircə an da əymədin heç qəddini, daim belə şux qalasan, daha insanların çətinlikləri, xoşagəlməz hallar arxada qalıb, indi muxtar respublikanın inkişafı, tərəqqisi ilə qol-qanad açır, pərvazlanır səhifələrin, axarlı olsun. Ulu diyarın tarixini, keçdiyi inkişaf yolunu, mahiyyəti açan yazıları, gözəl tərtibatı, maraqlı dizaynı, foto keyfiyyəti ilə gələcək nəsillərə çatdıran maarifçilik salnaməsi, hər zaman uğurlarla, nailiyyətlərlə qürurlandırasan oxucularını, gecə-gündüz sinəndə dolub daşan sözlərin daim dəyərli, kəsərli, qiymətli olsun. Əvvəlki yubileylərin kimi, 100 illiyin də dövlətimizin diqqət və qayğısı ilə yüksək şəkildə qeyd olunacaq, gözün aydın. 100 yaşın mübarək, ey çinar ömürlü söz təknəsi, maarifçilik salnaməsi, neçə belə yüzilliklər görəsən!

✍ **Nail ƏSGƏROV**

*Axşam düşüb qaranlıq çöksə də, onlara getməmiş, onun həyat hekayəsini dinləməmiş ezamiyyətdə olduğum Şərur rayonundan ayrılmaq fikrində deyiləm. Xanlıqlar kəndi böyük kənddir, amma kimdən soraq alsaq, şəhid Lətif Əliyevin ocağını bizə nişan verəcək deyə, kəndin işıqlı küçələri ilə irəliləyirik. Yolu keçən bir gənc diqqətimizi çəkir, avtomobili saxlayır, ondan şəhid ocağının yerini soruşur, bizimlə birlikdə getməsini rica edirik. Öyrənirik ki, bu gənc Lətifin yaxın dostu imiş. Osman Həsənov uşaqlıqdan Lətiflə qardaş kimi olduğunu deyir:*

Əfsanəyə dönən ömürlər

# Vətən sənə oğul dedi



– Onunla eyni məktəbdə təhsil alıb həmişə bir yerdə olmuşuq. Orduya yazılmazdan əvvəl birgə işləyirdik. Lətif heç vaxt heç kimin xətrinə dəyməzdi. Harada köməyə ehtiyac duyan birini görsə, əl tutardı. Ailəsinə çox bağlı idi. Hərbçi olmaq arzusu çoxdan var idi, imkan düşən kimi orduya yazılacağam, – deyirdi. Müddətdən artıq hərbi xidmətçi olmaq üçün müraciət etmişdi. "Hə" cavabı gələndə sevincinin həddi yox idi. Bir neçə ay idi ki, Vətənə xidmət kimi şərəfli bir peşənin sahibi olmuşdu... Vətən müharibəsinə gedəndə kənddə görüşdük, gülə-gülə getdi döyüşə. Ağır döyüşlərdə şəhid olduğu xəbərini eşidəndə bütün dostları onun qisasını almağa can atırdı. Elə bir oğul idi Lətif, min oğula bərabər. O elə bir zirvəyə yüksəldi ki, daim yaşayacaq. Hər birimiz onun çatdığı zirvəyə can atırıq.

Osmanın bələdçiliyi ilə üçrəngli bayrağın dalğalandığı daha bir ocağa – igid Vətən oğlu Lətif Əliyevin evinə çatırıq. Yollara dikilən gözlərinə əbədi həsrət çökən Nigar ana qarşılayır bizi. Qəhrəmanın anası. İgid, aslan böyüdən bir qadın. Qəhrəman Azərbaycan qadınları var olduqca daha neçə Lətiflər gələcək dünyaya deyirəm, ay ana. Nigar ana qürurlu, səbirli, əsl azərbaycanlı qadındır. Deyir ki, dərdim dünyadan böyükdür, amma bu dərd ellə gəlib. Elimizin illərdir, qanayan yarasına dərman oldu övladlarımız. Hərəmiz bir tərəfə çəkilib oğlumuzu gizlətsə idik, kim gedib alacaqdı o yurd-yuvanı. İllərdir, bir qolumuz yox idi, sanki. Balalarımızı Uca Tanrı öz süfrəsinə layiq bildi. Onlar xalqımızı böyük bir bəladan qurtardı. Oğlumun ayaq basdığı o torpağa can qurbandır.

O elə bil hiss edirdi geri dönə bilməyəcəyini. Gedən gün mənim ad günüm idi. Tort hazırlatdırıb mənim üçün. Gətirib gizlincə gəlinə verib, bərk-bərk də tapşırıb ki, anamı qoyma sıxılsın. Bu gün onun ad günüdür, mən getməliyəm siz necə lazımdırsa, qeyd edin. Həmin gün ad günümü keçirsək də, könlüm heç açılmadı. O, Bakıya çatan kimi zəng vurdu, "yaxşıyam", – dedi. O qədər düşüncəli idi mənim balam, döyüşə getdiyini bilməyim deyə, hər dəfə danışanda şux səslə: "Anam, yaxşıyam sən nigaran olma", – deyirdi. Həmişə hamını düşünərdi, heç kim narahat olsun istəməzdi, bir ilə yaxın idi ki, hərbçi olmuşdu, səhər tezdən qalxıb işə gedəndə qıymazdı ki, mən oyanım. Sakitcə gedərdi, heç kim bilməzdi. Elə döyüşə də səssizcə getdi. Qayıdanda bütün Naxçıvan qalxdı ayağa. Balalarımıza təkcə ailəsi yox, bütün Vətən ağladı, xalqımız qürur duydu onlarla. Analarının südü halal olsun igid balalarımıza ki, onlar bütün xəyallarını bir zəfərə qurban verdilər.

Qəhrəmanın atası Oruc əmi:

– Tez-tez gedirəm Şəhidlər xiyabanına, baxıram orada əbədiyyətə qovuşan oğulların yan-yana duran məzarlarına. Öz-özümə deyirəm ki, ölüm haqdır, ona hamı qovuşa bilər, ancaq hər kəs haqq üçün yenidən dirilə bilməz. Vətən üçün, torpaq, millət üçün şəhid olanlar bir ölüb min dirilər. Otuz il bundan əvvəl ermənilər Sədərəyə hücum edəndə heç kim mən orada doğulmamışam, niyə orada döyüşüm, deməd, harada yaşamasından, kim olmasından asılı olmayaraq, hamımız döyüşün ən qaynar nöqtələrinə getdik. Vətən torpağının kəndi, şəhəri yoxdur. Bu torpaq hamımızındır. Bu gün oğullarımız gedib o yurd-yuvanı geri almasaydı, nəvələrimiz getməli idilər. Bu bəla nəsildən-nəslə ötürüldükcə daha da böyüyəcəkdi. Lətiflə bərabər, çox oğullar qələbə ümidi ilə üz tutdu Qarabağa. El-obanın üzünü öz canları bahasına güldürdülər, Qələbə sevinci yaşatdılar xalqımıza. Şükür ki, o canlar hədər yerə qurban getmədi. Oğullarımız düşmənə elə bir zərbə vurdu ki, çətin ki, onlar bir də dirçələ. Qəhrəman övladlarımızın igidliyi dünyaya səs saldı. Şücaətləri dövlət başçısı tərəfindən qiymətləndirildi. Ölkə başçısının sərəncamları ilə oğlum "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medallarına layiq görülüb. Mən bir şəhid atası kimi dövlət başçısına minnətdarlığımı bildirirəm.

Bir neçə dəqiqədir, bu ocaqda olmağımıza baxmayaraq, özümü bu ailəyə o qədər yaxın hiss edirəm ki, sanki illərdir, Lətif və ailəsi ilə doğma olmuşam. Deyirlər, axı şəhidin yadı olmur. Oğul bir evdə dünyaya gəlir, bir ailənin övladı olur. Şəhid isə el üçün öz canından keçir, Vətənin oğlu olur. Vətən ancaq uğrunda canını, xəyallarını fəda edən oğullara oğul deyir. Vətən üçün min canı olsa, verə biləcək oğullara. Çünki Vətən həmişə şəhidləri ilə var olub. Bu gün başımızın üzərində şərəflə dalğalanan bayraq Vətənin oğul dediyi igidlərin canı bahasına ucalır. Necə ki, bu Vətən var, necə ki, Azərbaycan xalqı var, Lətif kimi oğullar da ürəyimizin başında yaşayacaq.

✍ **Ramiyyə ƏKBƏROVA**

# Muxtar respublikada dövlət miqrasiya siyasəti uğurla həyata keçirilir

***Bu gün Naxçıvan Muxtar Respublikasında həyata keçirilən genişmiqyaslı siyasi və iqtisadi islahatlar nəticəsində yaşayış səviyyəsi xeyli yüksəlmiş, bütün sahələrdə müşahidə olunan dayanıqlı və dinamik inkişaf əcnəbilərin muxtar respublikamıza olan marağını və müxtəlif məqsədlərlə səfəretmə niyyətini daha da artırmışdır. Sürətli sosial-iqtisadi tərəqqi, yeni iş yerlərinin, sosial obyektlərin açılışı, investisiya imkanlarının genişləndirilməsi, sabitliyin və təhlükəsizliyin mütləq surətdə qorunması, eyni zamanda əlverişli coğrafi-strateji mövqedə və mühüm ticarət qovşaqlarının üzərində yerləşməsi muxtar respublikada miqrasiya proseslərinin intensivləşməsini şərtləndirmişdir.***



Muxtar respublika ərazisinə olan miqrasiya axınlarını nəzarətdə saxlamaq, miqrasiya proseslərini qanunvericiliyə uyğun idarə etmək və tənzimləmək, həmçinin milli maraqlara uyğun miqrasiya siyasətinin həyata keçirilməsi istiqamətində Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti də məqsədyönlü fəaliyyət göstərir.

Fəaliyyət göstərdiyi dövr ərzində mühüm əhəmiyyətə malik Dövlət proqramlarının vaxtında, dəqiq və uğurlu icrası Dövlət Miqrasiya Xidmətinin də fəaliyyətində diqqətdə saxlanılan prioritet vəzifələrdən biri olub. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində əcnəbilərin də muxtar respublikamızda əmək fəaliyyəti ilə məşğul olması diqqət mərkəzində saxlanılıb, əməkçi miqrantların muxtar respublikada qanunsuz olaraq əmək fəaliyyətinə cəlb edilməsinin qarşısının alınması məqsədilə mütəmadi olaraq maarifləndirici söhbətlər aparılaraq müxtəlif tədbirlər həyata keçirilib.

Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nda nəzərdə tutulmuş turizm sektorunun inkişafı üçün Naxçıvan Muxtar Respublikasında əlverişli mühitin formalaşması məqsədilə sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi, sərhəd-buraxılış məntəqələrində sürətli keçidin təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi istiqamətində də Dövlət Miqrasiya Xidməti tərəfindən mühüm addımlar atılıb.

Xidmətin qarşısında duran mühüm vəzifələrdən biri də əcnəbilərin qanunsuz olaraq muxtar respublika ərazisindən tranzit keçid kimi istifadə edərək üçüncü ölkəyə keçmələrinin qarşısının alınmasıdır. Əminliklə deyə bilərik ki, bu gün muxtar respublikanın ölkə xaricinə giriş-çıxış qapıları sayılan Sədərək, Culfa, Şahtaxtı və Naxçıvan Beynəlxalq Hava Limanındakı sərhəd-buraxılış məntəqələrində qanunsuz miqrasiyanın qarşısının alınmasına nəzarət operativ və keyfiyyətli şəkildə həyata keçirilir. Bundan əlavə, sərhəd-buraxılış məntəqələrinin miqrasiya bölmələrində əcnəbi və vətəndaşlığı olmayan şəxslərin muxtar respublikaya daxil olduğu ilk andan etibarən maarifləndirilməsi istiqamətində də zəruri addımlar atılıb.

30 ilə yaxın blokada şəraitində yaşamasına baxmayaraq, həyata keçirilən çoxşaxəli dövlət siyasəti nəticəsində hərtərəfli dinamik inkişafa nail olunmuş və bu proses indi də davam etməkdədir. Muxtar respublikada siyasi sabitlik, mövcud təhlükəsizlik mühitinin yaradılması, miqrantların hüquq və azadlıqlarının qorunması sahəsində görülən mühüm işlər, burada yaşamaq, işləmək, təhsil almaq, xüsusilə də Azərbaycan vətəndaşı olmaq arzusunda olanların sayını ildən-ilə artırmaqdadır. Qeyd etmək lazımdır ki, aparılan uğurlu və məqsədyönlü siyasət vaxtilə respublikanı tərk edib digər dövlətlərə getmiş Azərbaycan vətəndaşlarının da geri qayıtması tendensiyasına müsbət təsir edib.

Ötən dövrlər ərzində xidmətin maddi-texniki bazası və infrastrukturu inkişaf etdirilib, fəaliyyətinin genişləndirilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilib, elektron informasiya resursları formalaşdırılıb. Belə ki, sərhəd-buraxılış məntəqələrinin miqrasiya bölmələrində Vahid Miqrasiya Məlumat Sisteminin fəaliyyəti təmin edilib və ölkəyə daxil olan əcnəbilərin qeydiyyata alınmaları üçün lazımi şərait yaradılıb. Mehmanxanalarla Dövlət Miqrasiya Xidməti arasında "Elektron hökumət portalı" üzərindən elektron sənəd dövriyyəsinin aparılması ilə də ölkəyə gələn əcnəbilərin olduğu yer üzrə qeydiyyata alınması proseduru sadələşdirilib.

Bu gün müasir dövrün çağırış və tələblərinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində mövcud xidmətlərin yeni formada, müasir tərzdə göstərilməsi, təmassız, onlayn rejimdə tətbiqinin genişləndirilməsi məqsədilə konkret sahələr üzrə 9 xidmət növünü əhatə edən "Elektron hökumət" formalaşdırılıb. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin, eyni zamanda ölkə vətəndaşlarının istifadəsinə verilən həmin xidmət növləri, əsasən, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatı, müvəqqəti və daimi yaşaması, müvəqqətiolma müddətinin uzadılması, iş icazələrinin verilməsi və müddətlərinin uzadılması, miqrasiya orqanlarına işə qəbul, dövlət rüsumlarının və cərimələrin onlayn ödənilməsi ilə bağlı sahələri əhatə edir.

Bu gün miqrasiya sahəsi üzrə göstərilən xidmətlərin keyfiyyətinin artırılmasında mühüm rol oynayan elektron xidmətlərdən biri də xidmətin rəsmi internet səhifəsidir. Üç dildə fəaliyyət göstərən, eyni zamanda ötən dövr ərzində funksionallıq və dizayn baxımından tamamilə yenilənərək müasir standartlara cavab verən xidmətin rəsmi internet səhifəsində miqrasiya məsələləri ilə bağlı yaranan bütün suallara tam və obyektiv cavab tapmaq mümkündür. Elektron xidmətlərin göstərilməsi zamanı vətəndaşların müraciət etmək hüququnun təmin edilməsi məqsədilə yaradılmış "202 – Miqrasiya Məlumat Mərkəzi"nin rolunu da xüsusi qeyd etmək lazımdır. Məlumat mərkəzinin fəaliyyəti miqrasiya sahəsi üzrə qanunvericilik və sənədlərin icrası ilə bağlı informasiyaları əldə etmək hüququnun təmini baxımından mühüm əhəmiyyətə malikdir.

Dövlət Miqrasiya Xidməti cari ildən etibarən həm elektron xidmətlərin sayının və keyfiyyətinin artırılması, həm də insanların daha çox sosial şəbəkələrdən informasiya mənbəyi kimi istifadəsini nəzərə alaraq onların rahatlığını və məmnuniyyətini təmin etmək, müraciətlərini operativ cavablandırmaq, habelə xidmətə müraciətetmə imkanlarını genişləndirmək məqsədilə həm "Facebook" (Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti), həm də "Instagram" *(nmr_miqrasiya_xidmeti)* səhifələrini ictimaiyyətin istifadəsinə verib. Bununla da sosial şəbəkə istifadəçiləri əlavə vaxt itkisinə yol vermədən Dövlət Miqrasiya Xidmətinin fəaliyyəti ilə əlaqədar operativ olaraq müraciətlər göndərə, həmçinin xidmətin fəaliyyət istiqamətləri üzrə görülən işlərlə yanaşı, hüquqi maarifləndirmə mövzularında məlumatlarla da daha yaxından tanış ola bilirlər.

Reallıqdır ki, bu gün əcnəbilərin muxtar respublikada rahat və təhlükəsiz hərəkət etmələrinin əsasında həm də maarifləndirmə tədbirləri dayanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri deyib: ***"Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşları çalışmalıdırlar ki, əcnəbilər qanunlara əməl etməklə yanaşı, həm də Azərbaycan Respublikasının tarixini, mədəniyyətini və dilini də öyrənsinlər".*** Fəaliyyət istiqamətlərində Ali Məclis Sədrinin tapşırıq və tövsiyələrini rəhbər tutan Dövlət Miqrasiya Xidməti tərəfindən muxtar respublikada müvəqqəti olan və yaşayan, əmək fəaliyyəti ilə məşğul olan əcnəbilərin iştirakı ilə müxtəlif maarifləndirmə tədbirləri keçirilir, onların tarixi abidələrə, muzeylərə və turizm obyektlərinə ekskursiyaları təşkil olunur.

Dövlət Miqrasiya Xidməti həm də insan hüquq və azadlıqlarının, toxunulmazlıqlarının qarantıdır. Adından da göründüyü kimi, muxtar respublikaya gələnlərin və buradan gedənlərin hüquqi tələblər və mənəvi dəyərlər çərçivəsində hüquqlarını qorumaq miqrasiya xidmətinin mahiyyətini təşkil edir. Muxtar respublikanın paytaxt şəhərində yerləşən Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinin fəaliyyəti burada insan amilinə verilən yüksək dəyərlə yanaşı, həm də miqrantlara göstərilən qayğının növbəti təzahürüdür. Mərkəzdə könüllü və məcburi saxlanılan miqrantların hüquqlarının təmin edilməsi məqsədilə hər cür lazımi şərait yaradılıb.

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin kollektivi muxtar respublikamızın inkişafı və tərəqqisi naminə Ali Məclis Sədrinin həyata keçirdiyi ardıcıl və sistemli tədbirlərə öz töhfəsini vermək üçün qarşıya qoyulan bütün vəzifələri bundan sonra da səy və bacarıqla həyata keçirməyə çalışacaq.*

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Vətən sevgisindən yoğrulan poeziya

Uzun illərdir ki, yaradıcılığını diqqətlə izlədiyim şair, ədəbiyyatşünas və pedaqoq Xanəli Kərimli "Tanrı müjdəsi" adlı səkkizinci şeir kitabı ilə oxucuların görüşünə gəlib. Bu görüşün də yaddaqalan olacağına şübhəm yoxdur. Çünki bundan əvvəlki kitablarında, müxtəlif mətbuat orqanlarında dərc olunmuş şeirləri ilə poeziyasevərlərə yüksək duyğular və ovqat bəxş etmiş, haqqında bir neçə məqalələr toplusu, "Xanəli Kərimli: Bir ömrün nağılı" adlı monoqrafiya nəşr olunmuş, "Payız duyğulu şair ömrü: Xanəli Kərimli" adlı sənədli film çəkilmiş Xanəli Kərimlinin yaradıcılığından vətənpərvərlik duyğuları, xalqımızın dünəni və bu günü, böyük Türk dünyasına sonsuz sevgi və məhəbbət qırmızı xətt kimi keçir. Şair həyatda olduğu kimi, yaradıcılığında da səmimidir – hətta tribunal şeirlərində belə. Şair, şeir və səmimiyyət. Bununla bağlı tənqidçi, ədəbiyyatşünas Vaqif Yusiflinin qənaəti maraqlıdır: "Şeir-poeziya, hər şeydən əvvəl, təbii hisslərin, duyğuların ifadəsidir. Poetik axtarış da öz yerində, şeiri gözəlləşdirən bədii təsvir vasitələri də öz yerində, bunlarsız yaxşı şeir yaranmaz, amma səmimiyyət olmazsa, şairin ürəyinin səsi o şeirdə ürəyə yol tapmaz".




Xanəli Kərimli ürəyə yol tapan şeirlərinin toplandığı "Tanrı müjdəsi" adlı yeni kitabındakı

*Haradan gəldiyim özümə ayan,*
*Hara gedəcəyəm – Tanrı işidir.*
*Mənim hər zərrəmdə bu gizli ümman*
*Əvvəli də sirdir, sonu da sirdir,* – misraları ilə bunu bir daha təsdiq edir.

Seçmə şeirlərin toplandığı "Taleyin öz yolu, öz ünvanı var", Türkiyə eskizlərindən ibarət "Türkə ağı demək olmaz", ikiliklərin və dördlüklərin yer aldığı "Sən elə yaşa ki..." və "Lirik poemalar" adlı 4 bölmədən ibarət kitabı oxuyarkən, sanki müəllifin tərcümeyi-halını, yeddi onilliyini geridə qoyduğu dünyanın bir-birinə bənzəməyən acılı-şirinli reallıqlarını görür, ən adi həyat detalına poetik rəng vermiş şairin təfəkkür dünyasından real dünyaya baxırıq. "Yaxşıdır", "Babam nağıl deyərdi", "Həyat tablosu", "Təbiət itirib təbiətliyin" və başqa şeirlərində Xanəli Kərimli real həyat həqiqətlərini müqəddəs sözün qüvvəsi ilə oxucuya elə çatdırır ki, özünü o şeirlərin içində hiss edirsən.

İnsanın müvəqqəti, dünyanın əbədiliyi illərdir ki, ədəbiyyatın, konkret desək, poeziyanın ən çox müraciət olunan mövzularındandır. Bu mövzulara müraciət edənlər də, təbii ki, çox olub. Xanəli Kərimli bu mövzuda qələmə aldığı şeirlərində sözçülükdən, boğazdan yuxarı pafosdan uzaqdır, sözümün əvvəlində dediyim kimi səmimidir, bir qədər də küskün...

*Bir də çətin gələ ələ bu dünya,*
*Nə dağda qarı var, nə bağda barı.*
*O qədər gözümdən düşdü ki, dünya,*
*Bir toz dənəsitək yox etibarı...*

Şeirlərdəki həssaslıq da gözdən qaçmır. Hiss edirsən ki, şair rastlaşdığı qınaqolunası obyektlərin yanından elə-belə keçə bilmir, gördüklərinə bir vətəndaş, duyğusal şair kimi reaksiya verir. Hər gün yanından, bəlkə də, bir neçə dəfə keçdiyimiz, fərqinə varmadığımız qurumuş ağac da şairi düşündürür, o canlıya qayğı göstərməyən biganələr səssiz-səmirsiz ittiham olunur. Şair səmimiyyəti ilə günahkarlara öz sözünü deyir:

*Dilin yox ki, dil deyəsən,*
*Kimi qarğıyıb söyəsən?*
*Kim qalıb ki, inciyəsən...*
*Sənin suyunu kim kəsdi?*

Şairin 70 illik yubileyinə həsr olunan kitabda müəllifin bir-birindən maraqlı, müxtəlif mövzulu poemaları özünə yer alıb: "Ağrı", "Bütövlük", "İnam", "Təbil", "Bayrağını uca qaldır, ana Vətən". Xanəli Kərimli şair qəlbinin ağrısı ilə xalqın bütövlük arzularına çatacağına inamını bildirir, təbil çaldırır ki, ana Vətən bayrağını ucalara qaldırsın.

Bu gün o bayrağın ucalarda dalğalanmağı şairin arzularının gerçəkləşməyidir. Başqa arzularının da gerçəkləşməsi diləyi ilə...

**Muxtar MƏMMƏDOV**

### Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin may ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 478558 | 51150 | 51156 | 100,0 |
| 2. | Naxçıvan şəhəri | 1195198 | 139121 | 139137 | 100,0 |
| 3. | Şərur rayonu | 770108 | 81608 | 81614 | 100,0 |
| 4. | Babək rayonu | 1222060 | 123442 | 123449 | 100,0 |
| 5. | Kəngərli rayonu | 415535 | 43994 | 43996 | 100,0 |
| 6. | Culfa rayonu | 452610 | 48110 | 48111 | 100,0 |
| 7. | Şahbuz rayonu | 368245 | 40103 | 40103 | 100,0 |
| 8. | Sədərək rayonu | 151757 | 15877 | 15877 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 7342996 | 1245345 | 1396962 | 112,2 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **12397067** | **1788750** | **1940405** | **108,5** |

***İtmişdir***

Ağayev Mənsur Səfər oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 449